**TAMİLLA ƏSGƏROVA,**
*ADM İU-nun Kitabxana-informasiya Mərkəzinin müdiri,*
*Kitabşünaslıq və kitabxanaçılıq kafedrasının müəllimi,*
*asgerova.70@mail.ru*

**NATİQ MÜRSƏLOV,**
*ADM İU-nun Kitabşünaslıq və kitabxanaçılıq kafedrasının müəllimi,*
*AMEA-nın kitabxanaşünas-doktorantı, natiq.doktorant@mail.ru*

# AZƏRBAYCANDA TEATR, KİNO VƏ TELEVİZİYA SƏNƏTLƏRİ ÜZRƏ ALİ TƏHSİLİN KİTABXANA-İNFORMASİYA TƏMİNATINDA İNNOVATİV FƏALİYYƏT

**Xülasə:** *Məruzədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) təcrübəsi əsasında teatr, kino və televiziya sənətləri üzrə ali təhsilin kitabxana-informasiya təminatını vəziyyəti təhlil olunur. Burada ilk dəfə olaraq ADMİU-nun bu sahədəki fəaliyyəti elmi tədqiqata cəlb olunur. Onun ölkəmizdə teatr, kino və televiziya sənətləri üzrə ali təhsilin kitabxana-informasiya təminatı sahəsində tutduğu rol araşdırılır və əhəmiyyəti sübuta yetirilir.*

**Açar sözlər:** *aktyor sənəti, rejissor, təhsil, mütaliə, kitab, elektron resurs, internet, ədəbiyyat*

Bilindiyi kimi, 1945-ci ildə teatr texnikumunun bazasında yaradılan Azərbaycan Dövlət Teatr İnstitutu, hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) kimi fəaliyyət göstərir. ADMİU ölkəmizdə yüksəkixtisaslı teatr, kino və televiziya sənətləri üzrə mütəxəssislərin hazırlanmasında ən mühüm yeri tutur və bu sahədə yeganə ali təhsil ocağıdır. Çoxillik təcrübəsi ilə o, bu gün də yüksək sənət ənənələrini özündə saxlayan neçə-neçə peşəkar aktyor, rejissor, teatr və kino tənqidçisi, operator və s. yetişdirərək incəsənətimizə öz layiqli töhfəsini verməkdədir.

Universitetdə "Teatr sənəti" fakültəsində bakalavr pilləsi üzrə "Dram teatrı və kino aktyoru", "Musiqili teatr aktyoru", "Estrada aktyoru", "Xoreoqrafiya sənəti", "Dram rejissoru", "Teatr kollektivi rejissoru", "Musiqili teatr rejissoru", "Estrada rejissoru", "Kütləvi tədbirlər rejissoru" və "Teatrşünas" ixtisasları istiqamətində peşəkar kadr hazırlığı həyata keçirilir. "Kino və televiziya" fakültəsində isə "Rejissorluq", "Operator sənəti", "Bədii yaradıcılıq və ekran dramaturgiyası" və "Kinoşünas" ixtisasları üzrə bakalavriat və magistratura

pillələrində mütəxəssis hazırlığı aparılır. Hər iki fakültədə müvafiq olaraq "62-Sənətşünaslıq" ixtisasının "6212.01-Teatr sənəti" və "6214.01-Kino, tele və digər ekran sənətləri" istiqamətlərində fəlsəfə doktoru proqramı üzrə doktorant və dissertant hazırlanır.

Bu gün ADMİU-da professor-müəllim heyətinin, əməkdaşların, tələbə, magistrant, doktorant və dissertantların elmi mütaliə prosesini və təhsilin keyfiyyətini düzgün təşkil etmək məqsədilə Kitabxana-informasiya Mərkəzi (bundan sonra – Mərkəz) fəaliyyət göstərir. Ali məktəbin aparıcı struktur bölmələrindən biri kimi Mərkəz, təlim-tərbiyə, tədris və elmi-tədqiqat prosesini tədris, elmi və metodiki ədəbiyyatla, digər ənənəvi və elektron informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən intellektual elmi məkandır. Burada teatrşünaslıq və kinoşünaslıq ixtisaslarında təhsil alan tələbələrin peşə hazırlığının artırılmasında və mütaliə mədəniyyətlərinin yüksəldilməsi istiqamətində də xeyli işlər həyata keçirilir.

Ümumiyyətlə qeyd edək ki, Mərkəz kitabxana-biblioqrafiya və informasiya fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamların, ADMİU-nun rəhbərliyinin qərarlarının və kitabxana-biblioqrafiya və informasiya fəaliyyəti üzrə cari il üçün iş planının icrasının təmin edilməsinə istiqamətləndirir.

Bu araşdırmamızda biz əsasən, teatr, kino və televiziya sənətləri üzrə ali təhsilin kitabxana-biblioqrafiya və informasiya fəaliyyəti sahəsində Mərkəzin işini tədqiq etmişik.

Əvvəlcə vurğulayaq ki, Mərkəz göstərilən sahələrdə əsasən aşağıdakı istiqamətlərdə işləri həyata keçirir:

- Teatr, kino və televiziya sənətləri üzrə sənəd-informasiya resursları fondunun ADMİU-nun fakültələrində təşkil edilən tədris proqramlarına, elmi-tədqiqatların istiqamətlərinə uyğun yerli və xarici çap və elektron nəşrlərlə komplektləşdirilməsini;
- Teatr, kino və televiziya sənətləri üzrə sənədlərin elmi sistemləşdirilməsini;
- Teatr, kino və televiziya sənətləri üzrə kitabxana-biblioqrafiya xidmətinin və informasiya proseslərinin avtomatlaşdırılmasını;
- Teatr, kino və televiziya sənətləri üzrə sənəd-informasiya fondunun istifadəsinin, təbliğinin, mühafizəsinin təşkili, təhsilin və elmin analitik-informasiya təminatının optimallaşdırılmasını;
- Teatr, kino və televiziya sənətləri üzrə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq istiqamətlərində elmi-tədqiqatların təşkili.

İndi isə sadaladığımız istiqamətlər üzrə Mərkəzdə həyata keçirilən işlər haqqında müfəssəl təhlil aparaq.

**1.** "Teatr, kino və televiziya sənətləri üzrə sənəd-informasiya fondunun

ADMİU-nun fakültələrində təşkil edilən tədris proqramlarına, elmi-tədqiqatların istiqamətlərinə uyğun yerli və xarici çap və elektron nəşrlərlə cari komplektləşdirilməsi" işinə müvafiq olaraq sənəd-informasiya resursları fondunun müntəzəm və planlı şəkildə zənginləşdirilməsi, oxucuların informasiya tələbatına uyğun formalaşdırılması və inkişafı məqsədilə ADMİU-nun fakültələrində təşkil olunan fənn proqramlarına əsasən tədris olunan mövzular təhlil olunur və bu istiqamətdə komplektləşdirilmənin profili müəyyənləşdirilir. Nəticədə fondun teatr, kino və televiziya sənətləri üzrə sənəd-informasiya resursları ilə əhatəli olaraq komplektləşdirilməsi təmin edilir. Belə ki, fondun teatr, kino və televiziya sənətləri üzrə ədəbiyyatla cari komplektləşdirilməsi Heydər Əliyev Fondu, ADMİU-nun nəşriyyatı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kitabxana Kollektoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İşlər İdarəsi, Azərbaycan Milli Kitabxanası, AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, ayrı-ayrı alim və mütəxəssislər, müəlliflər, kitab mağazaları və digər mənbələr hesabına həyata keçirilir.

Mərkəzin 43437 nüsxə kitab, kitabça, avtoreferat, dissertasiya və elektron nəşrdən ibarət ümumi sənəd-informasiya fondunun 57%-ni teatr, kino və televiziya sənətləri üzrə ədəbiyyat təşkil etməsi xüsusi maraq oyadır.

**2.** "Teatr, kino və televiziya sənətləri üzrə sənədlərin elmi sistemləşdirilməsi" işinə əsasən Azərbaycan və xarici dillərdə ədəbiyyat Universal Onluq Təsnifat (UOT) cədvəllərinə uyğun olaraq sistemləşdirilir. Burada sistemləşdirmənin əsas proseslərini ədəbiyyatın öyrənilməsi, təhlili, təsnifat qərarının qəbul olunması, aid olduğu bölmənin təyin edilməsi, təsnifat indekslərinin dəqiqləşdirilməsi və profilə uyğun yerləşdirilməsi təşkil edir. Məntiqli olaraq ADMİU-nun əsas binasında "Teatr sənəti" və "Kino və televiziya" fakültələrinin ixtisaslarına uyğun ədəbiyyat Mərkəzin fondunda sistemli şəkildə komplektləşdirilib.

**3.** "Teatr, kino və televiziya sənətləri üzrə kitabxana-biblioqrafiya xidməti və informasiya proseslərinin avtomatlaşdırılması" işinə uyğun olaraq Azərbaycan və xarici dillərdə olan ədəbiyyat texniki və elmi işlənir, "ИРБИС-64" Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi (AKİS) vasitəsilə Mərkəzin elektron kataloquna daxil edilir. Elektron kataloqda yaradılan Azərbaycan və rus dillərində olan bazalar mütəmadi olaraq yenilənir, oxucu tələbatı olmayan, aktuallığını itirmiş ədəbiyyat elektron kataloqdan çıxarılır.

Mərkəzin son dövrdə tətbiq etdiyi innovativ işlərdən biri də ADMİU-nun www.admiu.edu.az rəsmi saytında xüsusi linkdə Mərkəz üçün ayrılan sahədə verilənlər bazasının hazırlanması və istifadəyə verilməsi olub. Verilənlər bazasında aşağıdakı bölmələr yaradılıb:

- Mərkəzin tarixi və bu günü;
- Elektron kataloq;

- Elektron kitabxana;
- Xəbərlər;
- Yeni daxil olan kitablar;
- Virtual sərgi.

Verilənlər bazasının "Mərkəzin tarixi və bu günü" bölməsində 95 illik fəaliyyət dövrü ərzində universitetdə kitabxananın yaranması, inkişafı və müasir fəaliyyəti haqqında ətraflı məlumat yerləşdirilərək oxucuların diqqətinə çatdırılır.

"Elektron kataloq" bölməsində geniş oxucu auditoriyası üçün hazırlanmış 19549 nüsxə ədəbiyyatın annotasiyalı biblioqrafik təsvirinin lokal şəbəkədə universitet daxilində istifadəsi təmin olunub. Bununla da, oxucuların informasiya-axtarış aparatından səmərəli istifadəsi təşkil olunub.

"Elektron kitabxana" bölməsində 273 adda ədəbiyyat: Tarix, Dilçilik, Ədəbiyyat nəzəriyyəti, Bədii ədəbiyyat, Kulturologiya, Musiqi, Kino və televiziya, Teatr sənəti, Rəssamlıq, Dizayn və tətbiqi-dekorativ sənət, İqtisadiyyat və informatika, Sosial-siyasi ədəbiyyat elm sistemləri üzrə qruplaşdırılıb.

"Xəbərlər" bölməsində görülən işlərlə bağlı xəbərlər yerləşdirilib.

"Yeni daxil olan kitablar" bölməsində Mərkəzin fonduna cari ildə daxil olan ədəbiyyatın biblioqrafik siyahısı verilib.

Verilənlər bazasının "Virtual sərgi" bölməsində 327 nüsxə ədəbiyyatın annotasiyası ilə birlikdə yerləşdirilərək oxuculara təqdim olunması ədəbiyyatın əyani təbliğində vacib əhəmiyyətə malikdir.

**4.** "Teatr, kino və televiziya sənətləri üzrə sənəd-informasiya fondunun istifadəsinin, təbliğinin, mühafizəsinin təşkili, təhsilin və elmin analitik-informasiya təminatının optimallaşdırılması" işinə əsasən fərdi abonement vasitəsilə Mərkəzin ümumi oxu zallarında istifadəçilərə ənənəvi və elektron informasiya xidmət göstərilir. Hazırda Mərkəzin 2205 oxucusu vardır. Oxucu davamiyyəti il ərzində təxminən 9700 nəfər təşkil edir və 16000 sorğu yerinə yetirilir.

İnternet vasitəsilə elektron nəşr, elmi jurnal və qəzet materialları oxuculara elektron poçt və ya xarici yaddaş qurğusu vasitəsilə təqdim edilir. İnternetdən istifadə edərək, müvafiq mövzular üzrə axtarış aparmaqda, elmi mənbələri araşdırmaqda, dünya kitabxanaları ilə elmi kommunikasiyalar yaratmaqda oxuculara metodik köməklik göstərilir.

Mərkəzdə istifadəçilərin sorğusuna əsasən fondda olan az nüsxəli ədəbiyyat və profilə uyğun dərslik və dərs vəsaitləri kitabxanalararası abonement (KAA) vasitəsilə əldə olunaraq surəti çıxarılır, internet vasitəsilə elektron kitab çap variantına çevrilərək oxucuların istifadəsinə verilir. Bərpaya ehtiyacı olan ədəbiyyat yenidən cildlənir. Mərkəzin sənəd-informasiya resursları fondunda hər ayın sonunda müntəzəm olaraq gigiyenik işlər aparılır.

Son dövrdə ADMİU-da təşkil olunan "Seç.Oxu.Qaytar" layihəsinə əsasən

tələbələrin daha çox maariflənməsi, mütaliəyə cəlb olunması, ümumi dünyagörüşünün genişlənməsi və nitq mədəniyyətinin formalaşması məqsədilə kitab vitrinlərində kitab və jurnallar oxucuların istifadəsinə verilib. Burada istifadəyə verilən ədəbiyyat əsasən fonddan aktlaşdırılaraq çıxarılan kitablar, müəllim, tələbə və ayrı-ayrı şəxslər tərəfindən hədiyyə olunan qeyri-profilli ədəbiyyatlardır.

Mərkəzdə müxtəlif mövzulara, görkəmli dövlət, elm, mədəniyyət və incəsənət xadimlərinin, yazıçıların, şairlərin yubileylərinə həsr olunmuş ənənəvi və virtual ədəbiyyat sərgiləri təşkil edilir.

Kitabxanaya yeni daxil olan ədəbiyyat haqqında sərgilər vasitəsilə oxuculara operativ olaraq informasiya çatdırılır.

**5.** "Teatr, kino və televiziya sənətləri üzrə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq istiqamətlərində elmi tədqiqatların təşkili" işinə əsasən Mərkəzin əməkdaşları sahə üzrə kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın müxtəlif aktual məsələlərinə dair elmi-tədqiqat işləri həyata keçirirlər. Tədqiqat işlərinin nəticələrini ölkəmizdə keçirilən yerli və beynəlxalq elmi-nəzəri və elmi-praktiki konfranslarda məruzələrində geniş elmi auditoriyaya çatdırırlar. Tezisləri həmin konfransların materiallarında çap olunur və elmi jurnallarda məqalələri dərc edilir.

ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin perspektiv inkişaf üzrə fəaliyyət planına əsasən gələcəkdə teatr, kino və televiziya sənətləri üzrə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Elektron kitabxana vasitəsilə oxuculara teatr, kino və televiziya sənətləri üzrə virtual xidmətin göstərilməsi;
- Teatr, kino və televiziya sənətləri üzrə beynəlxalq kitab mübadiləsini həyata keçirilməsi;
- Teatr, kino və televiziya sənətləri üzrə ixtisasçı tələbələr üçün mütəmadi fəal təcrübi məşğələlərin təşkili;
- Mərkəzin teatr, kino və televiziya sənətləri üzrə fəaliyyətini ölkənin aparıcı ali məktəb kitabxanalarının səviyyəsinə qaldırılması;
- Fondda mövcud olan teatr, kino və televiziya sənətləri üzrə ədəbiyyata dair müvafiq annotasiyalı elmi-biblioqrafik göstəricilərin tərtibi və istifadəsinin təşkili.

Beləliklə, ilk dəfə olaraq biz, elmi cəhətdən isbatladıq ki, ölkəmizdə teatr, kino və televiziya sənətləri üzrə ali təhsilin kitabxana-informasiya təminatı məsələsi olduqca vacib bir məsələdir. Bu əhəmiyyətli məsələnin özünəməxsus problemlər konteksti mövcuddur. Həmin problemlərin həlli istiqamətində də ADMİU-nun Kitabxana-İnformasiya Mərkəzinin gördüyü işlər həqiqətən də, diqqətə layiqdir.

**Ədəbiyyat**

1. İnformasiya cəmiyyətinin qurulmasında elektron nəşr texnologiyasının rolu //Azərbaycan.- 2004.- 23 aprel.
2. Xələfov A. Kitabxanaşünaslığa giriş: dərslik. III hissə: kitabxana işi haqqında təlim.- Bakı: BDU nəşriyyatı, 2003.- 360 s.
3. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-informasiya Mərkəzinin 2017-ci il hesabatı.

## Инновационная деятельность научно-информационной поддержки высшее образование искусства театра, фильма и телевидения в Азербайджане

**Резюме:** *В статьи были изучены обучение и продвижение ценностей культуры и искусства библиотечной науки и научно-информационной поддержки деятельности Фонда, ее развитие информационных ресурсов Библиотека и информационный центр Азербайджанский Государственный Университет Культуры и Искусства. Достижения Центра в последние годы, эта область имеет существующие недостатки и принять необходимые меры для их решения, предложения были выдвинуты в будущем.*

**Ключевые слова:** *актерское искусство, режиссер, образование, чтение, книги, электронные ресурсы, литература*

## Innovative activity of library-information support of high school education of theater, cinema and television measures in Azerbaijan

**Abstract:** *The article were studied of The Library and Information Center of The Azerbaijan State University of Culture and Art, teaching and promotion of the values of the culture and art of the multukultural library science and scientific information support for the activities of the Fund, its information resources development. The center's achievements in recent years, this area has the existing shortcomings and take the necessary measures to resolve them, the proposals were put forward to the future.*

**Key words:** *actor art, producer, education, reading, book, electronic resource, literature*